Ədəbiyyat QƏZETİ

27 dekabr 2024-cü il 27 №51-52

# Vüqar SƏRDAROV-50



Hörmətli Vüqar müəllimi 50 illik yubileyi münasibətilə təbrik edirik!

Vüqar Zakir oğlu Sərdarov Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1993-cü ildə paytaxdakı 258 saylı orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Pedaqoji Universitetinin tarix-hüquq fakültəsinə daxil olub. 1998-ci ildə Daxili İşlər Nazirliyində xidmətə başlayıb, 2022-ci ilədək xidmət edib. Daxili İşlər Nazirliyi orqanlarında uzun illər qüsursuz xidmətə görə, əla xidmətə görə fəxri fərmanları, 1-ci, 2-ci, 3-cü dərəcəli qüsursuz xidmətə görə medalları ilə təltif edilib.

Elmi-publisistik və bədii yaradıcılıqla məşğuldur. Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin, həmçinin Gürcüstan və Qırğızıstan Yazıçılar Birliyinin üzvüdür. Özbəkistan Karsi Dövlət Universitetinin fəxri professorudur.

İndiyədək 15 elmi-publisistik kitabı nəşr olunub. 2001-ci ildə işıq üzü görmüş "Xalqın sözü, haqqın özü" kitabına görə Həsən bəy Zərdabi mükafatına layiq görülüb. Qızıl Qələm mükafatı laureatıdır. Azərbaycan Prezidenti yanında Bilik Fondunun təşəkkürnaməsini alıb. 2023-cü ildə Ulu Öndər Heydər Əliyein 100 illik yubileyi münasibəti ilə "Əvəzsiz Lider" kitabı çap olunmuşdur.

"Ata ocağı", "Anam yadıma düşdü", "İnam və etimad ünvanı", "İnsan və vətəndaş hüquq azadlıqları", "Mülki Hüquq münasibətləri", "Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları", "Nə yaxşı sən varsan", "Bir anam var" və s. kitabların müəllifidir.

Hazırda İçərişəhər Elmi-mədəni Mərkəzinin direktor müavini və YAP Səbail rayon Ərazi təşkilatının sədri vəzifələrində çalışır.

Hörmətli Vüqrar müəllimi bir daha yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**